İQTİSADİ İSLAHATLARIN
TƏHLİLİ VƏ KOMMUNİKASİYA
MƏRKƏZİ

Avqust 2017

# AZƏRBAYCAN İQTİSADİ İSLAHATLAR İCMALI



# Azərbaycan Respublikasında tütünçülüyün inkişafına dair 2017-2021-ci illər üçün Dövlət Proqramı



“Azərbaycan Respublikasında tütünçülüyün inkişafına dair 2017-2021-ci illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti tərəfindən 10 avqust 2017-ci il tarixli müvafiq Sərəncam imzalanmışdır.

Azərbaycanda tütünçülüyün inkişaf etdirilməsi, tütün emalı sahəsinin dərinləşdirilməsi, bu sahədə fəaliyyət göstərən emal müəssisələrinin xammala olan tələbatının yerli məhsul istehsalı hesabına təmin olunması, gəlirliliyin və ixrac potensialının artırılması, kənd əhalisinin məşğulluğunun yüksəldilməsi məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti tərəfindən Dövlət Proqramının təsdiq edilməsi qərara alınmışdır.
Sərəncamda Azərbaycan Respublikasının Maliyyə və İqtisadiyyat nazirlikləri tərəfindən Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə, müvafiq olaraq, hər il dövlət büdcəsinin və dövlət investisiya proqramının tərtibi proseslərində maliyyə vəsaitinin nəzərdə tutulması üçün zəruri tədbirlərin görülməsi öz əksini tapmışdır.

Belə ki sözügedən Sərəncam çərçivəsində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi qarşısında qoyulan tapşırıqlar arasında aşağıdakılar yer almaqdadır:

- Ölkədə beynəlxalq standartlara uyğun tütün məmulatı istehsal edən müasir zavodun tikilməsi məqsədilə texniki-iqtisadi əsaslandırmanın hazırlanması üçün müvafiq tədbirlərin görülməsi;
- Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsinin əlaqələndirilməsi;
- Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin icrası barədə ildə bir dəfədən az olmayaraq Azərbaycan Respublikasının Prezidentinə məlumat verilməsi.

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi qarşısında qoyulan tapşırıqlar isə aşağıdakı kimidir:

- məhsul istehsalçılarının kənd təsərrüfatı texnikası və aqrokimyəvi vasitələrlə təmin edilməsi, seleksiya və toxumçuluq işlərinin, fitosanitar və informasiya-məsləhət xidmətlərinin gücləndirilməsi ilə bağlı zəruri tədbirlərin görülməsi;
- Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsinin əlaqələndirilməsi;
- Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin icrası barədə ildə bir dəfədən az olmayaraq Azərbaycan Respublikasının Prezidentinə məlumat verilməsi.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin bu Sərəncamdan irəli gələn məsələləri həll etməsi də verilən tapşırıqlar arasında öz əksini tapmışdır.




www.iqtisadiislahat.org

www.ereforms.org

www.ecoreform.az

Bakı, Yasamal rayonu,
Landau küçəsi 16, AZ 1073

info@ereforms.org

(+994)12 5213318

/ iqtisadiislahat